**QANUNVERİCİ HAKİMİYYƏT**

**Ümumi qiymət 53/100**

| MEYAR | İNDİKATOR | QANUN | TƏCRÜBƏ |
|---|---|---|---|
| Fəaliyyət qabiliyyəti 56/100 | Resurs | 75 | 50 |
| | Müstəqillik | 75 | 25 |
| İdarəçilik 54/100 | Şəffaflıq | 75 | 50 |
| | Hesabatlılıq | 75 | 25 |
| | Dürüstlük | 75 | 25 |
| Şəffaflıq sistemində rol 50/100 | İcraedici hakimiyyətə nəzarət | 25 | |
| | Qanunvercilik islahatları | 75 | |

## Struktur və təşkilatlanma

Azərbaycanda ilk parlament 1918-ci ilin 28 mayında Azərbaycan Xalq Cümhuriyyəti elan olunandan sonra yaradılıb, Sovet İttifaqının dağılmasından sonra isə 1991-ci ilin 26 noyabrında Azərbaycan Ali Sovetinin barışıq komissiyasının qərarı ilə Milli Məclis adı altında bərpa edilib[1]. Milli Məclis birpalatalı qanunvericilik orqanıdır və majoritar seçki sistemi ilə ümumi, bərabər, sərbəst, birbaşa seçki əsasında şəxsi və gizli səsvermə yolu ilə beş il müddətinə seçilən 125 deputatdan ibarətdir. Azərbaycan Respublikasının Milli Məclisi 83 deputatının səlahiyyətləri təsdiq olunduqda səlahiyyətlidir. Prezident seçkiləri, Milli Məclisə seçkilər və referendum kimi mühüm məsələlərə dair səsvermə üçün də 83 səs çoxluğu tələb olunur. Digər məsələlər üçün 63 səs yetərsay təşkil edir[2]. Azərbaycan Respublikasının Konstitusiyasının 93-cü maddəsinə əsasən[3] Milli Məclis öz səlahiyyətlərinə aid məsələlər üzrə Konstitusiya qanunları, qanunlar və qərarlar qəbul edir. Konstitusiya həmçinin göstərir ki, qanunlarda və Azərbaycan Respublikası Milli Məclisinin qərarlarında icra hakimiyyəti və məhkəmə orqanlarına konkret tapşırıqlar nəzərdə tutula bilməz. Azərbaycan parlamentində İntizam komissiyası və Hesablayıcı komissiyasından əlavə 11 daimi komitə mövcuddur[4]:

- Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsi
- Təhlükəsizlik və Müdafiə Komitəsi

[1] Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin Parlamentlərarası Assambleyasının İnternet saytında Azərbaycan parlamenti haqqında məlumat: www.iacis.ru
[2] Azərbaycan Respublikasının Konstitusiyası, 91.2-ci maddə, 12 noyabr 1995 (qüvvəyə minmə tarixi – 27 noyabr 1995), www.e-qanun.az
[3] Azərbaycan Respublikasının Konstitusiyası, 12 noyabr 1995 (qüvvəyə minmə tarixi – 27 noyabr 1995), www.e-qanun.az
[4] Milli Məclisin İnternet saytı, www.meclis.gov.az

- Təbii Ehtiyatlar, Energetika və Ekologiya Komitəsi
- İqtisadi Siyasət Komitəsi
- Aqrar Siyasət Komitəsi
- Sosial Siyasət Komitəsi
- Regional Məsələlər Komitəsi
- Elm və Təhsil Komitəsi
- Mədəniyyət Komitəsi
- Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsi
- İnsan Hüquqları Komitəsi

Parlamentin qanun yaradıcılığı prosesində mühüm[5], hətta aparıcı rol oynayan kifayət qədər geniş aparatı var.

## Qiymətləndirmə

## Resurslar (qanunda): 75

*Öz vəzifələrini səmərəli şəkildə həyata keçirmək üçün qanunvericilik orqanını müvafiq maliyyə, insan və infrastruktur resursları ilə təmin edəcək hüquqi müddəalar nə dərəcədə mövcuddur?*

Milli Məclisin resursları kifayət qədərdir. Məsələn, Milli Məclisin 2012-ci il üçün büdcəsi 18.589.488 manat təşkil edib[6]. Bundan əlavə, Milli Məclis öz büdcəsini özü təsdiq edir və illik büdcə müzakirələri zamanı növbəti il üçün öz xərclər smetasını müəyyən edir[7].

Parlamentdə ən yüksək vəzifə maaşını parlamentin sədri alır və digər millət vəkillərinin əmək haqları onun məvacibinə nisbətdə müəyyən edilir. Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında Azərbaycan Respublikasının Qanununa əsasən[8] Milli Məclis sədrinin birinci müavini Milli Məclis sədrinin aylıq vəzifə maaşının 90 faizi, Milli Məclis sədrinin müavinləri - 85 faizi, Milli Məclisin komitə və komissiya sədrləri - 80 faizi, Milli Məclisin komitə və komissiya sədrinin müavini - 75 faizi, Milli Məclisin deputatları isə Milli Məclis sədrinin aylıq vəzifə maaşının 70 faizi miqdarında aylıq vəzifə maaşı alır.

## Resurslar (təcrübədə): 50

*Qanunvericilik orqanı öz vəzifələrini həyata keçirmək üçün adekvat resurslara təcrübədə nə dərəcədə sahibdir?*

Milli Məclisin resursları öz vəzifələrini həyata keçirmək üçün kifayət edir. Milli Məclisin əmək haqları, avadanlıq və təlim üçün kifayət qədər büdcəsi var[9]. Qanuna edilən son dəyişikliyə əsasən[10] Milli Məclisin

---

[5] Adam Hug, Introduction to Spotlight on Azerbaijan, edited by Adam Hug, publication by Foreign Policy Centre, London, May 2012, http://fpc.org.uk/fsblob/1462.pdf

[6] Azərbaycan Respublikası Milli Məclisinin 2012-ci il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı, 6 dekabr 2011, www.meclis.gov.az

[7] Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi, 52-ci maddə, 17 may 1996, www.meclis.gov.az

[8] Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında Azərbaycan Respublikasının Qanunu, 17 may 1996, www.meclis.gov.az

[9] Keçmiş millət vəkili Gültəkin Hacıbəylinin hesabat müəllifinə müsahibəsi, 30 oktyabr 2013-cü il

[10] Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 25 dekabr 2013, www.president.az

sədrinin aylıq vəzifə maaşı 1.950 manatdan 2.250 manata qaldırılmış və müvafiq olaraq parlamentin komitə və komissiyalarının sədr və sədr müavinlərinin və millət vəkillərinin əmək haqları da artmışdır[11]. Deputatların vəzifə maaşları Avropa standartlarına uyğun, özəl sektor ilə müqayisədə yüksək olmasa[12] da da yerli standartlarla müqayisədə xeyli yüksəkdir[13]. Müqayisə üçün, rəsmi statistikanı göstərmək olar. 2013-cü ilin dekabr ayına olan rəsmi məlumatlara görə[14] dövlət sektorunda orta aylıq əmək haqqı 423 AZN ($528), 334 ($418) AZN arası, qeyri dövlət sektorunda isə 496 ($620) AZN-dir.[15].

Parlament öz resurs bazasını möhkəmlətmək üçün həmçinin beynəlxalq dəstək də alıb. ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyəsi ilə Development Alternatives, Inc. (DAI) təşkilatının həyata keçirdiyi Parlament proqramı 2007-2011-ci illərdə Azərbaycan parlamentinin səmərəliliyini və təmsilçilik qabiliyyətini gücləndirməyə yönəldilib. Proqram 125 yerli nümayəndəlik ofisinin yaradılmasına və parlamentin İnternet səhifəsinin təkmilləşdirilməsinə yardım edib[16]. Millət vəkillərinin seçicilərlə ünsiyyətdə olmaq üçün müvafiq seçki dairələrində ofisləri olsa da, yenə də onların şəxsi köməkçilərə ehtiyacları vardır[17].

Parlamentin infrastrukturunu təkmilləşdirmək və əməkdaşlarının potensialını artırmaq məqsədilə də əhəmiyyətli vəsait sərf edilib[18].

## Müstəqillik (qanunda): 75

*Qanunvericilik orqanı kənar qüvvələrin tabeçiliyindən qanunla nə dərəcədə azad və müstəqildir?*

Qanun Milli Məclisinin müstəqilliyini təmin edir və parlament üzvlərinə toxunulmazlıq verir. Qanuna əsasən qanunverici orqan buraxıla bilməz və parlamentin buraxılması üçün qanunda heç bir hüquqi mexanizm mövcud deyil. Milli Məclisinin sədri Azərbaycan Respublikası Prezidentinin və ya Milli Məclisinin 42 deputatının tələbi əsasında Milli Məclisin növbədənkənar sessiyalarını çağırır və bu növbədənkənar sessiyaların gündəliyini müvafiq olaraq onun çağırılmasını tələb edənlər müəyyənləşdirir[19]. Milli Məclisin iclasları Milli Məclisin növbəti yaz və payız sessiyalarının əvvəlində qəbul edilən qanunvericilik işləri planına uyğun olaraq keçirilir[20].

Milli Məclisin sədri Milli Məclisin deputatları sırasından bülletenlər vasitəsilə gizli səsvermə yolu ilə seçilir. Milli Məclisin sədri vəzifəsinə namizədliyi Milli Məclisin deputatları irəli sürə bilərlər. Hər deputat yalnız bir namizəd göstərə bilər. Öz namizədliyinə etiraz müzakirəsiz və səsvermə keçirilmədən qəbul edilir. Səsvermə bülleteninə azı 10 deputatın tərəfdar çıxdığı namizədlər daxil edilir. Namizədlər çıxış edə və deputatların suallarına cavab verə bilərlər. Səsvermə bülleteninə daxil edilən namizədlər üzrə müzakirələr keçirilir. Milli Məclisin sədrliyinə hər namizəd Hesablayıcı komissiyasının tərkibinə əlavə bir deputat daxil edə bilər. Milli Məclisin sədrinin seçilməsi Milli Məclisin qərarı ilə rəsmiləşdirilir. Bu qərarı

[11] Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 25 dekabr 2013, www.president.az
[12] Fuad Süleymanovun hesabat müəllifinə müsahibəsi, 15 Aprel 2014-cü il
[13] Hesabatın müəllifinin keçmiş millət vəkili Gültəkin Hacıbəyli ilə müsahibəsi, 30 oktyabr 2013.
[14] Dövlət Statistika Komissiyasın veb səhifəsi, www.stat.gov.az/indexen.php
[15] Real average salary in Azerbaijan reduces its growth rate, Fineko/abc news agency, 22 February 2014 http://abc.az/eng/news/main/79604.html
[16] Azərbaycanda Parlament proqramı, Development Alternatives, Inc. təşkilatının İnternet səhifəsi, www.dai.com
[17] Millət vəkili, Ədalət Partiyasının sədri, İlyas İsmayılovun hesabat müəllifinə müsahibəsi, 21 Aprel 2014-cü il
[18] Bertelsmann Transformation Index: Azerbaijan Country report, 2012, www.bti-project.de
[19] Azərbaycan Respublikasının Konstitusiyası, 12 noyabr 1995 (qüvvəyə minmə tarixi – 27 noyabr 1995), www.e-qanun.az
[20] Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi, 7-ci maddə, 17 may 1996, www.meclis.gov.az

Milli Məclisin iclasına sədrlik edən imzalayır.[21] Milli Məclisin sədri Milli Məclisin aparatının rəhbər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir[22].

Milli Məclisin komitələrinin fəaliyyəti fikir müxtəlifliyi, siyasi plüralizm, aşkarlıq, məsələlərin sərbəst müzakirəsi prinsipləri əsasında qurulur.[23].

Milli Məclisin binasının xüsusi rejimi Milli Məclisin sədrinin sərəncamı ilə müəyyən edilir. Milli Məclisin sədrinin icazəsi olmadan Milli Məclisin binasında axtarış aparıla bilməz.[24].

Konstitusiyaya əsasən, səlahiyyət müddəti ərzində Azərbaycan Respublikası Milli Məclisi deputatının şəxsiyyəti toxunulmazdır. O, cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz. Milli Məclisin deputatı ancaq cinayət başında yaxalanarsa[25] və ya hüquq mühafizə orqanlarının təqdimatı əsasında onun toxunulmazlığına Milli Məclisinin qərarı ilə xitam verildikdən sonra həbs oluna bilər[26].

## Müstəqillik (təcrübədə): 25

*Qanunvericilik orqanı kənar qüvvələrin tabeçiliyindən təcrübədə nə dərəcədə azaddır?*

Bir sıra millət vəkilləri icra hakimiyyətinin yumşaq mövqe sərgiləyir və tənqidlərdən çəkinirlər[27].

Son illər ərzində Milli Məclis vətəndaş cəmiyyətinin fəaliyyətini tənzimləyən düzəlişlərin qəbulu üçün Qeyri-hökumət təşkilatları haqqında qanuna və digər əlaqədar qanunlara bir neçə dəfə dəyişikliklər edib[28]. Milli Məclis həmçinin diffamasiyaya görə cinayət məsuliyyətini onlayn məzmuna da şamil edən müddəalar qəbul edib[29]. Bundan başqa, 2012-ci ilin iyununda parlament informasiya əldə etmə hüququnu məhdudlaşdıran dəyişikliklər qəbul edib[30][31]. Bu dəyişikliklərə əsasən, hüquqi şəxslərin təsisçiləri və maliyyə mənbələri, onların nizamnamə kapitalının həcmi və digər oxşar məlumatları ancaq hüquq mühafizə orqanları əldə edə biləcək. Bu müddəalar Azərbaycanın üzərinə götürdüyü digər beynəlxalq öhdəliklərə, o cümlədən 2012-ci ildə qoşulduğu Açıq Hökumət Tərəfdaşlığı təşəbbüsünün[32] və İnformasiya əldə etmək haqqında qanunun irəli sürdüyü şəffaflıq prinsipinə ziddiyyət təşkil edir[33] [34]. Bu müddəalar parlamentdə müzakirə olunarkən bəzi millət vəkilləri (Asim Mollazadə, Qüdrət Həsənquliyev, Fazil Mustafa, İqbal Ağazadə) buna qarşı çıxsalar da heç bir nəticə hasil olmayıb[35].

---

[21] Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi, 33-cü maddə, 17 may 1996, www.meclis.gov.az
[22] Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi, 31-ci maddə, 17 may 1996, www.meclis.gov.az
[23] Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi, 35-ci maddə, 17 may 1996, www.meclis.gov.az
[24] Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi, 1-ci maddə, 17 may 1996, www.meclis.gov.az
[25] Azərbaycan Respublikasının Konstitusiyası, 12 noyabr 1995 (qüvvəyə minmə tarixi – 27 noyabr 1995), www.e-qanun.az
[26] The Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında Azərbaycan Respublikasının Qanunu, 17 may 1996, www.meclis.gov.az
[27] Zahid Oruc parlamenti hökumətə güzəştli mövqe tutmaqda qınadı, Mediaforum, 3 may 2013, http://www.mediaforum.az/az/2013/03/05/Zahid-Oruc-parlamenti-h%C3%B6kum%C9%99t%C9%99-g%C3%BCz%C9%99%C5%9Ftli-m%C3%B6vqe-020120974c00.html
[28] Milli Məclis 2013-cü ilin 15 fevral tarixində Qeyri-hökumət təşkilatları haqqında qanuna və Cinayət Məcəlləsinə dəyişikliklər edərək qrant müqavilələrinin Ədliyyə Nazirliyində qeydiyyatı məsələlərini sərtləşdirdi və bu dəyişikliklər 2013-cü ilin 11 martında qüvvəyə mindi. 2014-cü ilin 2 fevralında Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında qanuna, Qrantlar haqqında qanuna və İnzibati Xətalar Məcəlləsinə yeni dəyişikliklərlə Ədliyyə Nazirliyində qrant müqavilələrinin qeydiyyatının, həmçinin QHT-lərin hüquqi statusu və fəaliyyətlərində yeniliklər barədə icraedici hakimiyyətin zamanında məlumatlandırılmasının şərtləri müəyyənləşdirildi.
[29] Cinayət Məcəlləsinin 147 və 148-ci maddələrinə 14 may 2013-cü il tarixli dəyişikliklər, www.e-qanun.az
[30] Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında qanuna, Kommersiya sirri haqqında və İnformasiya əldə etmək haqqında qanuna 12 iyun 2012-ci il tarixli dəyişikliklər.
[31] Azerbaijan: Parliament Thrwos veil of secrecy over business sector, by Shahin Abbasov, Eurasia net, 13 June 2013, www.eurasianet.org/node/65534
[32] "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 sentyabr 2012, www.president.az
[33] İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanunu, 30 sentyabr 2005, www.e-qanun.az
[34] Cənubi Qafqaz ölkələrində İnformasiya Azadlığı Haqqında Məlumat kitabı, Transparency International Azərbaycan, Transparency International Gürcüstan, May 2012, www.transparency.az
[35] From now on the list of founders and their equity stake regarded as commercial secret in Azerbaijan, 12 June 2012, FINECO/ABC, http://abc.az/eng/news_12_06_2012_65667.html

## Şəffaflıq (qanunda): 75

*Qanunverici orqanın fəaliyyətləri və qərar qəbuletmə prosesləri haqqında ictimaiyyətin müvafiq və zamanında informasiya ala bilməsini təmin edəcək hüquqi müddəalar nə dərəcədə mövcuddur?*

Hüquqi müddəalar Milli Məclisin və onun fəaliyyətlərinin şəffaflığını təmin edir. Milli Məclisin qərarları "Azərbaycan Respublikası Milli Məclisinin Məlumatı"nda rəsmi dərc edilir. Milli Məclisin iclaslarının protokolları və stenoqramları "Azərbaycan Respublikası Milli Məclisi iclaslarının protokolları və stenoqramları"nda rəsmi dərc edilir[36]. Milli Məclisin qapalı iclaslarının məzmunu haqqında məlumatlar aşkarlana bilməz və yalnız Milli Məclisin deputatları tərəfindən onların Milli Məclisdəki fəaliyyətində istifadə edilə bilər[37].

Milli Məclisin Daxili Nizamnaməsinin 3-cü maddəsinin dili xeyli ümumidir[38]. Bu maddə Milli Məclisin iclaslarının açıq, aşkarlıq şəraitində keçirilməsini bəyan etsə də, bunun praktiki baxımdan necə tətbiq olunmasını müəyyən etmir[39]. Digər tərəfdən qanun həm də göstərir ki, Milli Məclisin, Milli Məclisin sədrinin və onun müavinlərinin, Milli Məclis Aparatı rəhbərinin dəvəti ilə Milli Məclisin iclaslarında digər şəxslər də iştirak edə bilərlər[40].

Milli Məclisin iclaslarında məsələlər açıq və ya gizli səsvermə yolu ilə həll edilir. Milli Məclisin iclaslarında, bir qayda olaraq, elektron sistemindən istifadə etməklə açıq səsvermə keçirilir. Başqa səsvermə növlərinin keçirilməsi üçün protokol qaydasında qərar qəbul edilir. Milli Məclisin azı 25 deputatı tələb etdikdə elektron sistemindən istifadə etməklə adbaad rejimdə açıq səsvermə keçirilir. Açıq səsvermə zamanı əlqaldırma və sorğu anketləri üsulundan istifadə edilir. Gizli səsvermə elektron və bülletenlər yolu ilə aparılır. Elektron səsvermə xaric digər səsvermələrin nəticələri Hesablama Komissiyası tərəfindən hesablanır və Milli Məclisə sədrlik edən şəxs vəya Hesablama Komissyasının sədri tərəfindən elan olunur.[41].

Qanuna görə millət vəkilləri mütəmadi qaydada seçicilərlə təmasda olmalıdırlar[42].

Gəlirlər və əmlak barədə bəyannamələrin ictimai açıqlanmasına dair heç bir müddəa yoxdur. Hətta qanun göstərir[43] ki, millət vəkillərinin təqdim etdikləri maliyyə məlumatları şəxsi həyat sirri hesab olunur və konfidensiallığı qorunur. Göstərilən məlumatlar yalnız korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı Baş prokurorluğun və ya məhkəmələrin əsaslandırılmış qərarları əsasında tələb edilə bilər.

## Şəffaflıq (təcrübədə): 50

*Qanunverici orqanın fəaliyyətləri və qərar qəbuletmə prosesləri haqqında ictimaiyyət müvafiq və zamanında informasiyanı təcrübədə nə dərəcədə əldə edə bilir?*

Qanunverici orqanın fəaliyyətləri və qərar qəbul etmə prosesləri ictimaiyyət üçün qismən şəffafdır. Bəzi media təşkilatları Milli Məclis tərəfindən akkreditasiyadan keçib və millət vəkilləri onlara adətən təmasda olur. Həmin media orqanları parlamentin daimi komitələrinin iclaslarında, eləcə də plenar

---

[36] Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi, 53-cü maddə, 17 may 1996, www.meclis.gov.az
[37] Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi, 3-cü maddə, 17 may 1996, www.meclis.gov.az
[38] Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi, 3-cü maddə, 17 may 1996, www.meclis.gov.az
[39] Azərbaycanın antikorrupsiya strategiyasının dəstəklənməsi (AZPAC), Texniki sənəd: Azərbaycan Respublikasında lobbiçilik qaydaları haqqında ekspertiza, Məsləhətçi Quentin Reed, Böyük Britaniya, AZPAC Layihəsi, 2009-cu il www.coe.int
[40] Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi, 3-cü maddə, 17 may 1996, www.meclis.gov.az
[41] Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi, 24-26-cı maddələr, 17 May, 1996 www.meclis.gov.az
[42] The Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında Azərbaycan Respublikasının Qanunu, 17 may 1996, www.meclis.gov.az
[43] Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydalarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu, 24 iyun 2005, www.e-qanun.az

iclaslarda iştirak üçün dəvət olunurlar[44]. Bəzi millət vəkilləri başqalarına nisbətən mediaya daha açıqdır, lakin, onlar da adətən müxalif media qurumlarından uzaq qalmağı seçirlər[45]. Qanunlar, qanun layihələri, Milli Məclisdə müzakirələrin stenoqramları parlamentin saytında dərc edilir[46], parlament komitələrindəki müzakirələrin stenoqramları isə dərc olunmur. Əvəzində parlament komitələrinin müzakirə və qərarlarının qısa xülasələri iclaslarda iştirak edən jurnalistlər tərəfindən dərc olunur[47]. Lakin nə milli telekanallar, nə də onlayn TV-lər Milli Məclisin sessiyalarını müntəzəm olaraq canlı yayımlamır, nə də sessiyaların videoyazılarını vermir. Milli Məclisdə açıq polemikaya tez-tez rast gəlinmir deyə nə telekanallar yayımda maraqlı deyil, nə də əhali izləməyə maraq göstərmir[48].

Milli Məclis qanunları qəbul etməzdən əvvəl həmişə müzakirə edir, lakin bəzi millət vəkillərinin fikrincə müzakirələrə ayrılan zaman yetərli deyil. Parlamentin iclaslarının və komitələrdə dinləmələrin gündəliyi millət vəkilləri arasında bir neçə həftə öncədən yayılır. Milli Məclisin bütün iclaslarının videoyazısı qeydə alınır və deputatlara paylanılır. Hökumətin fəaliyyəti haqqında hesabatlar ətraflı və təfərrüatları ilə müzakirə olunmur. Milli Məclisin mütəmadi dərc edilən öz jurnalı var. Jurnalda millət vəkillərinin müsahibələri və sair materiallar dərc edilir. Komitələrin isə öz ayrıca jurnalları yoxdur. Fərdi büdcələr, xərclər və deputatların əmlak və gəlirləri haqqında hesabatlar dərc edilmir və ictimaiyyətə açıq deyil.

Qanunların dilinin qeyri-müəyyən olması səbəbindən təcrübədə vətəndaşlar fərdi qaydada parlamentin iclaslarında iştirak edə və müzakirələri izləyə bilmirlər. Milli Məclisə giriş vəsiqə və qonaqlar üçün birdəfəlik buraxılış kağızı əsasında mümkündür[49]. Milli Məclis üzvləri ilə komunikasiya imkanları məhduddur. Milli Məclisin binasında sosial şəbəkələrdən istifadə qadağan edilib və parlament üzvlərinə öz seçiciləri ilə sosial şəbəklərdən istifadə etməklə komunikasiya qurmasına mane olur[50]. Millət vəkilləri vətəndaşların müraciətlərinə adətən cavab versələr də, insanların problemlərini o qədər də həll edə bilmirlər[51], belə ki, onların təsir imkanları dövlət qurumlarından sorğu göndərməklə məhdudlaşır[52].

Beynəlxalq donorların yardımı ilə[53] seçki dairələrində deputat köməkçilərinin ofislərinin yaradılması sayəsində millət vəkillərinin seçicilərlə təmaslarının səmərəliliyi artsa da[54], Milli Məclisin həqiqi müstəqilliyinə və millət vəkilləri ilə seçicilərin azad şəkildə təmasına Azərbaycanda hələ də nail olunmayıb[55].

Milli Məclisin deputatları parlamentdən kənar müxalifət partiyaları ilə əməkdaşlıq etmirlər, eləcə də parlamentdə təmsil olunmayan siyasi qüvvələrlə çox da məsləhətləşmirlər[56].

## Hesabatlılıq (qanunda): 75

---

44 "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyinin sədri Ramil İsgəndərlinin hesabat müəllifi ilə müsahibəsi, 26 mart 2014
45 Keçmiş millət vəkili Gültəkin Hacıbəylinin hesabat müəllifinə müsahibəsi, 30 oktyabr 2013.
46 Adam Hug, Introduction to Spotlight on Azerbaijan, edited by Adam Hug, publication by Foreign Policy Centre, London, May 2012, http://fpc.org.uk/fsblob/1462.pdf
47 "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyinin sədri Ramil İsgəndərlinin hesabat müəllifinə müsahibəsi, 26 mart 2014
48 Keçmiş millət vəkili Gültəkin Hacıbəylinin hesabat müəllifinə müsahibəsi, 30 oktyabr 2013
49 "Şəffaflıq Azərbaycan" təşkilatının əməkdaşlarının şəxsi təcrübəsi
50 Difficult Parliament by Fazil Mustafa, Modern az, 11 January 2014, http://modern.az/articles/50224/1/
51 Keçmiş millət vəkili Gültəkin Hacıbəylinin hesabat müəllifinə müsahibəsi, 30 oktyabr 2013
52 Millət vəkili, Ədalət Partiyasının sədri, İlyas İsmayılovun hesabat müəllifi ilə müsahibəsi, 21 Aprel 2014-cü il
53 Azərbaycanda Parlament Proqramı, Development Alternatives, Inc. təşkilatının İnternet saytı, www.dai.com
54 "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyinin sədri Ramil İsgəndərlinin hesabatın müəllifinə müsahibəsi, 26 mart 2014-cü il tarixli
55 Parliamentary Program of Azerbaijan Evaluation Final Report, Lincoln Mitchell, Ph.D. and Rashad Shirinov, M.A., Democracy International Inc., July 2011, www.democracyinternational.com
56 Resolution 1917 (2013): The honouring of obligations and commitments by Azerbaijan, Council of Europe Parliamentary Assembly, www.europarl.europa.eu

*Qanunverici orqanın öz hərəkətlərinə görə hesabatlılığını təmin edən hüquqi müddəalar nə dərəcədə mövcuddur?*

Qanuna əsasən[57], Milli Məclisinin deputatı aşağıdakı hallarda mandatdan məhrum edilir:

- seçkilər zamanı səslərin düzgün hesablanmadığı aşkar olunduqda;
- Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda və ya başqa dövlətin vətəndaşlığını qəbul etdikdə;
- cinayət törətdikdə və məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda;
- dövlət orqanlarında vəzifə tutduqda, din xadimi olduqda, sahibkarlıq, kommersiya və başqa ödənişli fəaliyyətlə məşğul olduqda (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla);
- özü imtina etdikdə.

Qanunverici orqanın öz hərəkətlərinə görə hesabatlılığı qanunda müəyyən edilməyib, xüsusilə də vətəndaşların şikayətlərinə baxılmasının ümumi qaydalarını nəzərə almasaq[58], qanunverici orqan və ya onun hər hansı üzvünün qərarları və hərəkətləri ilə bağlı şikayətlərə baxılması mexanizmləri mövcud deyil.

Qanunvericiliyə görə Konstitusiya Məhkəməsinin səlahiyyətləri parlament seçkilərinin nəticələrinin düzgünlüyünün yoxlanması və təsdiq olunması ilə məhdudlaşır[59]. Milli Məclisinin deputatları Milli Məclisdəki fəaliyyətinə, sesverməyə və söylədiyi fikrə görə məsuliyyətə cəlb oluna bilməzlər. Onlar parlamentdəki çıxışlarına görə izahat verməyə və sübutlar təqdim etməyə borclu deyillər[60]. Müvafiq məsələlər barəsində qanunverici orqanın ictimai müzakirələr təşkil etməsini tələb edən müddəalar mövcud deyil. Qərarların qəbulu prosesində ictimaiyyətin iştirakını tənzimləyən İctimai iştirakçılıq haqqında yeni qanun[61] da bunu nəzərdə tutmayıb.

## Hesabatlılıq (təcrübədə): 25

*Qanunverici orqan və onun üzvləri öz hərəkətləri üçün təcrübədə nə dərəcədə hesabatlıdırlar?*

Milli Məclis öz hərəkətlərinə görə təcrübədə kifayət qədər hesabatlı deyil. Milli Məclis qanunları qəbul etməzdən əvvəl adətən müvafiq hökumət strukturları, bəzi hallarda vətəndaş cəmiyyəti ilə məsləhətləşmələr həyata keçirir. Məsələn, Vergi Məcəlləsinə əhəmiyyətli dəyişikliklər edərkən[62], eləcə də İctimai iştirakçılıq haqqında qanunun qəbulu zamanı[63] [64] [65] [66] vətəndaş cəmiyyəti ilə geniş müzakirələr aparılıb[67] [68].

---

[57] Azərbaycan Respublikasının Konstitusiyası, 89-cu maddə, 12 noyabr 1995 (qüvvəyə minmə tarixi: 27 noyabr 1995), www.e-qanun.az
[58] Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında Azərbaycan Respublikasının Qanunu, 10 iyun 1997, www.e-qanun.az
[59] Azərbaycan Respublikasının Konstitusiyası, 86-cı maddə, 12 noyabr 1995 (qüvvəyə minmə tarixi: 27 noyabr 1995), , www.e-qanun.az
[60] Azərbaycan Respublikasının Konstitusiyası, 91-ci maddə, 12 noyabr 1995 (qüvvəyə minmə tarixi: 27 noyabr 1995), www.e-qanun.az
[61] İctimai iştirakçılıq haqqında Azərbaycan Respublikasının Qanunu, 22 noyabr 2013-cü il tarixində qəbul olunub və 1 iyun 2014 tarixində qüvvəyə minəcək, www.e-qanun.az
[62] Vergi Məcəlləsi, 11 iyul 2000 (27 dekabr 2013-cü il tarixli dəyişikliklərlə), www.e-qanun.az
[63] İctimai iştirakçılıq haqqında Azərbaycan Respublikasının Qanunu, 22 noyabr 2013-cü il tarixində qəbul olunub və 1 iyun 2014 tarixində qüvvəyə minəcək, www.e-qanun.az
[64] İctimai İştirakçılıq haqqında qanun layihəsinin müzakirəsi, Sosial-İqtisadi İnkişaf Fəaliyyət (SEDA), Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası, Azərbaycan Hüquqşünaslar Konfederasiyası və Parlament tərəfindən 2 aprel 2013-cü il təşkil edilmişdir.
[65] Azərbaycanda İctimai İştirakçılıq Haqqında Qanun müzakirə olunur, məllif Səbinə İdayətova, 3 Aprel 2013 http://www.azernews.az/azerbaijan/51582.html
[66] "Şəffaflıq Azərbaycan" təşkilatının əməkdaşlarının şəxsi təcrübəsi
[67] Avrasiya Əməkdaşlıq Fondu gömrük məcəlləsinin müzakirəsi üçün Milli Məclisin iclasında iştirak edib 17 İyun 2011-ci il, http://www.epfound.az/azeri/yenilikler/press-relizler/aef-gomruk-mecellesini-muzakire-etmek-uchun-milli-meclisin-iclasinda-ishtirak-edib.html
[68] "Şəffaflıq Azərbaycan" təşkilatının əməkdaşlarının şəxsi təcrübəsi

Deputat toxunulmazlığı millət vəkillərini öz hərəkətlərinə görə məsuliyyətdən azad edir. Lakin qeyri-qanuni əməllər hüquqi yolla təsdiq olunduqda Milli Məclis millət vəkilini adətən deputat mandatından məhrum edir. Aşağıda müzakirə olunacaq Gülər Əhmədovanın[69] işi buna nümunə ola bilər.

Bəzi deputatlar icraedici hakimiyyətə bağlı olan qurumlarda çalışır vəya biznes fəaliyyəti ilə məşğul olurlar.[70] Bu Konstitutsiyanın[71] və Seçki Məcəlləsinin[72] müvafiq müddəalarının pozulmasıdır.

Millət vəkillərininin təmsilçiliyi öz seçki dairələrində yerli ofislərinin yaradılması ilə inkişaf etsə də, vətəndaşların siyasi məlumatlılığının aşağı olması ucbatından sosial və ya icma işlərində iştirak etmək, müzakirə edilən qanunlara münasibət bildirmək və ya millət vəkillərini hesabatlı etmək ilə bağlı yox, özlərinin şəxsi işlərini, xüsusən maliyyə problemləri ilə bağlı millət vəkillərinə müraciət edirlər[73]. Bundan əlavə, millət vəkilləri icmaların ehtiyaclarının təmsilçiliyində rollarını dərk etmək əvəzinə fərdi seçicilərin konkret problemlərinin həllindəki rollarına daha çox diqqət ayırırlar[74].

## Dürüstlük (qanunda): 75

*Qanunverici orqanın üzvlərinin dürüstlüyünü təmin edən mexanizmlər nə dərəcədə mövcuddur?*

Milli Məclis üçün kənar ekspertlər tərəfindən 2009-cu ildən qəti tövsiyə olunan[75] xüsusi davranış kodeksinin hələ də olmamasına baxmayaraq Milli Məclisin deputatının statusu haqqında qanun deputatların davranışını tənzimləyən kifayət qədər müddəa irəli sürür. Qanuna əsasən deputat qanunazidd hərəkətlərə, habelə insanın şərəf və ləyaqətini alçaldan kobud, təhqiramiz sözlərə və hərəkətlərə yol verməməlidir[76]. Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydaları tələb edir ki, Milli Məclisin Sədri və deputatları öz əmlak və gəlirlərinə dair bəyannamələrini Korrupsiyaya Qarşı Mübarizə üçün Komissiyaya təqdim etsinlər. Qanun həmçinin göstərir[77] ki, Milli Məclisinin deputatları maliyyə xarakterli məlumatları Milli Məclis tərəfindən müəyyən edilmiş quruma da təqdim edirlər[78]. Lakin hələ də nə bu qurum müəyyən edilməyib, nə də məlumatların təqdimatı üçün zəruri sənədlərin formaları hazırlanmayıb[79].

## Dürüstlük(təcrübədə): 25

*Qanunverici orqanın üzvlərinin dürüstlüyü təcrübədə nə dərəcədə təmin edilib?*

[69] Yüksək səviyyəli korrupsiya işi ilə bağlı hökm oxundu, 7 Dekabr 2013-cü il http://azerireport.com/index.php?option=com_content&task=view&id=4218&Itemid=42
[70] Milli Məclisin deputatlarının siyahısı http://www.meclis.gov.az/?/az/deputat/
[71] Konsitutsiyanın 85 və 89-cu maddələri, 12 noyabr 1995-ci il, Konstitutsiyaya son dəyişiklik, 18 mart 2009-cu ildə edilmişdir. www.e-qanun.az
[72] Seçki Məcəlləsinin 5-ci fəsli, 11 noyabr 2013-cü il www.msk.gov.az
[73] Millət vəkili, Ədalət Partiyasının sədri, İlyas İsmayılovun hesabat müəllifinə müsahibəsi, 21 Aprel 2014-cü il
[74] Parliamentary Program of Azerbaijan Evaluation Final report July 2011 by Lincoln Mitchell, Ph.D. and Rashad Shirinov, M.A., publication by Democracy International Inc., www.democracyinternational.com
[75] Support to the anti-corruption strategy of Azerbaijan (AZPAC), Technical Paper: Expert Opinion on Regulation of Lobbying in the Republic of Azerbaijan, by Quentin REED, United Kingdom, Long-term Advisor, AZPAC Project, 2009, www.coe.int
[76] Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında Azərbaycan Respublikasının Qanunu, 17 may 1996, www.maclis.gov.az
[77] Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydalarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu, 24 iyun 2005, www.e-qanun.az
[78] Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydalarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu, 24 iyun 2005, www.e-qanun.az
[79] 19 sentyabr 2013-cü il tarixində Azərbaycan Şəffaflıq Tərəfdaşlığı Platformasının görüşü və "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın ilkin versiyasının müzakirəsində Konstitusiya Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyevin çıxışı, www.transparency.az

Millət vəkillərinin dürüstlüyü barəsində ictimaiyyətin çox az məlumatı var. 2013-cü ilin 29 oktyabrında bəzi millət vəkillərinin öz həmkarlarının əvəzinə səs verməsini göstərən foto və videolar mətbuatda geniş dərc olundu[80]. Bu hadisədən sonra millət vəkili İqbal Ağazadə açıq formada etiraf etdi ki, bu təcrübə uzun müddətdir ki, mövcuddur[81]. Halbuki qanun bunu qadağan edir. Milli Məclisin İntizam komissiyasında bu halla əlaqədar araşdırma aparılması, günahkarların müəyyən edilməsi və cəzalandırılması ilə bağlı heç bir məlumat yoxdur.

2012-ci ilin sonunda Azərbaycan YAP üzvü, millət vəkili Gülər Əhmədovanın Milli Məclisdə deputat yeri üçün bir milyon dollar həcmində rüşvət tələb etməsini göstərən qalmaqallı videonun izləyicisi oldu[82] [83]. Videonun deputat yeri üçün "müraciət edən" keçmiş biznesmen Elşad Abdullayev tərəfindən İnternetə yerləşdirildiyi iddia edilir. Video yayılarkən Elşad Abdullayev artıq Fransada mühacirətdə idi. Videonun həqiqiliyi deputatın köməkçisi tərəfindən dərhal təsdiq olunsa da, onun həm də montaj olunduğu iddia edilirdi[84]. 2013-cü ilin dekabrında Gülər Əhmədova kifayət qədər yumşaq ittihamla – dələduzluqda təqsirkar bilinməklə üç il azadlıqdan məhrum edildi[85]. Bu qalmaqal mətbuatda "Gülərgeyt" adını almışdı.

Parlamentdə İntizam komissiyası mövcud olsa da, onun işi və aşkarladığı nəticələr, eləcə də verdiyi cəzalar barədə ictimaiyyətə demək olar ki, heç nə məlum deyil.

## İcra hakimiyyətinə nəzarət: 25

*Qanunverici orqan icra hakimiyyətinə səmərəli nəzarəti nə dərəcədə təmin edir?*

Yuxarıda sadalanan problemlərin fonunda cəmiyyətin müəyyən kəsimində belə bir fikir mövcuddur ki, Azərbaycanda qanunverici orqan hakimiyyət bölgüsündə nəzarət və tarazlıq sisteminin səmərəli təşkili istiqamətdində imkanlarını artırmalıdır.[86]. Milli Məclisin illik iş planı millət vəkillərinə qanun yaradıcılığında geniş imkanlar yaratmır, yəni millət vəkillərinin qanunvercilik təşəbbüsləri iş planında kifayət qədər yer almır[87].

Baş Nazirin parlamentdə təqdim etdiyi hesabatlar təcrübədə geniş müzakirə olunmur. . İstisna hal kimi bir neçə il əvvəl millət vəkili Hüseyn Abdullayevlə bağlı qalmaqalı misal göstərmək olar.[88]

Qanunverici orqanın araşdırma komissiyaları qurmaq səlahiyyətindən səmərəli istifadə olunmur. Ən azından belə komissiyaların qurulması və faəliyyəti barədə geniş ictimaiyyətdə məlumatlar mövcud deyil.

## Qanunvericilik islahatları: 75

---

[80] Həmkarının yerinə səs verən deputatların biri danışdı, 29 oktyabr 2013, Virtualaz.org, http://virtualaz.org/bugun/12156
[81] Скандал в Милли Меджлисе: Мнение депутатов, 29 октября 2013, Minval.az, http://minval.az/news/24651/
[82] Video: Million Dollar Bribe for a Seat in Azerbaijan Parliament, 26 September 2012, http://www.azadliq.info/english/347-meqaleen/21633-video-million-dollar-bribe-for-a-seat-in-azerbaijani-parliament.html
[83] "Gülər Əhmədovanın bu görüntüləri sizi şok edəcək" başlıqlı Youtube videosu, http://www.youtube.com/watch?v=V04el-Kr7Wc
[84] Генпрокуратура Азербайджана расследует запись переговоров о даче взятки за место в парламенте страны, Фаиг Меджид, Кавказский узел, 27 Сентября 2012, http://www.kavkaz-uzel.ru/articles/213224/
[85] Sentence Passed in High-Profile Azerbaijani Bribery Case, Caucasus Report, Radio Azadlyg, 6 December 2013, http://www.rferl.org/content/caucasus-report-azerbaijan-ahmedova-sentenced/25192020.html
[86] Parliamentary Program of Azerbaijan Evaluation Final report, Lincoln Mitchell, Ph.D. and Rashad Shirinov, M.A., Democracy International Inc. , July 2011, www.democracyinternational.com
[87] Millət vəkili, Ədalət Partiyasının sədri, İlyas İsmayılovun hesabat müəllifinə müsahibəsi, 21 Aprel 2014-cü il
[88] Fistfight in Azerbaijani Parliament indicates controversy within ruling block, Today.az, 23 March 2007, http://www.today.az/print/news/politics/38230.html

*Qanunverici orqan ölkədə qayğı doğuran korrupsiya ilə mübarizə və idarəçilik məsələlərinə nə dərəcədə üstünlük verir?*

Azərbaycan korrupsiyaya qarşı mübarizə üçün hüquqi bazanın yaradılması baxımından olduqca qənaətbəxş nəticə göstərir[89]. Bununla belə, bir neçə mühüm qanun hələ də qəbul olunmalıdır. Bu qanunların sırasına maraqların toqquşması ilə bağlı qanun, korrupsiya şahidlərinin (whistleblower) qorunması ilə bağlı qanun və dövlət qulluğundan kənar digər hüquqi vəzifəyə görə cəzaların tətbiq olunması ilə bağlı normalar aiddir[90].

Son illər ərzində Milli Məclis şəffaflıq və korrupsiyaya qarşı mübarizə sahəsində bir neçə qanun qəbul edib. Bunlara Korrupsiyaya qarşı mübarizə haqqında[91], Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi haqqında[92], Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydalarının təsdiq edilməsi haqqında[93], Dövlət Qulluqçularının Etik Davranış Kodeksi haqqında[94], İnformasiya əldə etmək haqqında[95] və İctimai iştirakçılıq haqqında[96] qanunlar nümunə göstərilə bilər. Bu dəyərləndirmə üçün rəyi soruşulan ekspertlərin fikrincə bu qanunlar Avropa standartları ilə tam uyğunlaşmasa belə, yenə də kifayət qədər əhatəlidir[97] [98] [99].

Azərbaycan həmçinin BMT-nin Korrupsiyaya qarşı Konvensiyasını ratifikasiya edib (30 sentyabr 2005) və bir neçə beynəlxalq şəffaflıq təşəbbüsünə qoşulub:

- Avropa Şurası ilə birgə 2007-2009-cu illərdə icra edilmiş "Azərbaycanın Korrupsiyaya qarşı mübarizə Strategiyasına Dəstək" (AZPAC) texniki əməkdaşlıq layihəsi;
- Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsi və Litva Respublikasının Xüsusi İstintaq Xidməti (STT) arasında Tvinniq proqramı (2009-2011);
- Korrupsiyaya qarşı Parlament Üzvlərinin Qlobal Təşkilatının (GOPAC) 2009-cu ildə təsis edilmiş Korrupsiyaya qarşı Cənubi Qafqaz Parlamentlər Şəbəkəsi (CAUPAC);
- Açıq Hökumət Təşəbbüsü və ona uyğun olaraq qəbul olunmuş Milli Fəaliyyət Planı (5 sentyabr 2012).

Qanuna əsasən[100], Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyada beş millət vəkili təmsil olunur və onlar Komissiyanın mandatına uyğun olaraq ölkənin antikorrupsiya siyasətinin formalaşmasında iştirak etmək və onun icrasına nəzarət etmək imkanlarına sahibdirlər.

## Tövsiyələr:

- Milli Məclisdəki müzakirələrin stenoqramını Milli Məclisin saytında zamanında dərc etmək; parlament komitələrindəki müzakirələrin də stenoqramlarını dərc etmək; əhəmiyyətli məsələlər barəsində müzakirələri milli televiziya kanalında və ya İnternet TV vasitəsilə canlı yayımlamaq; insanların fərdi

[89] Third Round of Monitoring: Azerbaijan, Monitoring Report, by OECD, Anti-corruption Network for Eastern Europe and Central Asia, Istanbul Anti-corruption Action Plan, Paris, 25 September 2013, www.oecd.org
[90] Korrupsiya Qavrama İndeksi 2013, Şəffaflıq Azərbaycan təşkilatının mətbuat üçün açıqlaması, 3 dekabr 2013, www.transparency.az
[91] Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu, 13 yanvar 2004, www.e-qanun.az
[92] Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 3 may 2005, www.e-qanun.az
[93] Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydalarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu, 24 iyun 2005, www.e-qanun.az
[94] Dövlət qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının Qanunu, 31 may 2007, www.csc.gov.az
[95] İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanunu, 30 sentyabr 2005, www.e-qanun.az
[96] İctimai iştirakçılıq haqqında Azərbaycan Respublikasının Qanunu, 22 noyabr 2013-cü il tarixində qəbul olunub və 1 iyun 2014 tarixində qüvvəyə minəcək, www.e-qanun.az
[97] Keçmiş millət vəkili Gültəkin Hacıbəylinin hesabat müəllifinə müsahibəsi, 30 oktyabr 2013-cü il
[98] Konstitusiya Araşdırmalar Fondunda aparıcı araşdırmaçı Zaur İbrahimlinin hesabat müəllifinə müsahibəsi, 19 sentyabr 2013-cü il
[99] Korrupsiyaya Qarşı Mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsinin əlaqələndiricisi Əliməmməd Nuriyevin Xəzər TV-də Cəmiyyət verilişində çıxışı, 29 noyabr 2013
[100] Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 3 may 2005, www.e-qanun.az

qaydada parlament iclaslarında iştirak edib müzakirələri izləməsinə imkan yaradan qanunvericilik dəyişiklikləri etmək;

- Deputat köməkçilərinin seçki dairələrində fəal işi vasitəsilə seçicilərin maraqlarının parlamentdə daha yaxşı təmsil olunmasını təmin etmək; Parlament üzvlərinin seçiciləri ilə sosial şəbəkələrdən istifadə etməklə ünsiyyət saxlamalarını təşviq etmək;
- Parlamentdən kənarda qalan vətəndaş cəmiyyəti ilə forumlar, dəyirmi masalar, daimi işçi qrupları vasitəsilə müzakirələr təşkil etmək; parlament komitələrinin iclaslarında yeni qanun layihələrinin müzakirəsi məqsədilə vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakını təmin etmək;
- Milli Məclisin İntizam komissiyasının qanun pozuntuları ilə bağlı aşkarladığı nəticələr və verdiyi cəzalar barəsində məlumatları dərc etmək və millət vəkillərinin maliyyə məlumatlarını təqdim etməsinə nail olmaq.